Ədəbiyyat qəzeti

5 iyun 2021-ci il 23

# Əkrəm QAFLANOĞLU - 70



Hörmətli Əkrəm müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz istedadlı yazıçı-publisist, fəal ictimaiyyətçi, mədəniyyətimizin fədakar təəssübkeşi kimi yaxşı tanınırsınız. İlk məqaləniz orta məktəbdə oxuyarkən Quba rayon qəzeti "Şəfəq"də dərc olunmuşdur. Sonradan respublika qəzet və jurnallarında, toplularda məqalə və hekayələr ilə çıxış etmisiniz.

Sizin məqalələrinizin əsas mövzusunu Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyat xadimlərinin həyat və fəaliyyəti, Azərbaycan musiqisi, ifaçılıq sənəti təşkil edir. Buna görə də, siz mədəniyyət xadimləri arasında hörmət və nüfuz qazanmısınız.

"Həm gülək, həm düşünək" (Bakı, "Qapp-Poliqraf" nəşriyyatı, 2002, 351 səh), "55+" (Bakı, "Çinar-Çap" nəşriyyatı, 2008, 376 səh.), "Dünyanı belə gördüm" ("Aspoliqraf", Bakı 2014, 478 səh), "Talelər kəsişəndə" (Mədəniyyət Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatına layiq görülüb (2017) ("Aspoliqraf", Bakı 2015, 136 səh.) kitablarınız oxucular arasında böyük maraqla oxunur.

Siz uzun illər Xaricdə yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti - Vətən Cəmiyyətində məsul vəzifədə çalışmısınız. Azərbaycan ictimai fikrinin, milli azadlıq mübarizəsinin inkişafında böyük xidmətlərə malik "Vətən" Cəmiyyətinin fəaliyyətində mühüm rolunuz olmuşdur. Coşqun fəaliyyətinizi Azərbaycan mühacıratının doğma vətənləri ilə əlaqələr yarada bilməsi kimi şərəfli bir işə həsr etmisiniz.

Siz uzun illər Azərbaycan Respublikası Nazirlər Kabinetində, Baş nazirin müavininin köməkçisi vəzifəsində çalışmısınız.

Hörmətli Əkrəm müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə ailə səadəti, uzun ömür, cansağlığı, yaradıcılığınızda uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**